# Bəyannamədə ərazi bütövlüyünə, müstəqilliyə hörmətlə yanaşma aydın ifadə olunub

**Fevral ayının 22-də Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında təkbətək görüş olmuş və Rusiya ilə Azərbaycanın diplomatik münasibətlərinin yaradılmasının 30 illiyi ərəfəsində keçən görüşdə müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə imzalanmışdır.**

Uzun illərə söykənən müttəfiqlik münasibətlərinin inkişafında yeni mərhələ olan Bəyannamə hər iki ölkənin müttəfiqlik fəaliyyətinin bir-birinin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq, güc tətbiq etməmək və güclə hədələməmək prinsipləri üzərində qurulmasını özündə əks etdirir. 40 maddədən çox məsələni özündə ehtiva edən Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə həmçinin, ölkələrin müttəfiqlik münasibətlərinə xələl gətirən, eləcə də bir-birinə qarşı yönəlmiş hərəkətlərdən çəkinmək, öz ərazisində hər hansı bir təşkilat və şəxslərin digər tərəfin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısını almaq öhdəliyini də öz üzərinə götürməyi qarşıya qoyur.

Vətən müharibəsini Zəfərlə başa vuran Azərbaycan müharibənin bitdiyi ilk günlərdən bölgədə sabitliyin tam bərqərar olması, Cənubi Qafqazda sülhün və sabitliyin davamlı dövlət siyasətinə çevrilməsi istiqamətində zəruri addımlar atır. Bu addımların başlanğıcı isə iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" oldu.

Şuşa Bəyannaməsi iki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının hər iki ölkə xalqlarının maraq və mənafelərinə xidmət etdiyini, siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar və s. sahələrdə ümumi maraqların, o cümlədən qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini ehtiva edir. Azərbaycan Respublikası Türkiyə Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləyir və Türkiyə Respublikasının terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəkləyir.

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda formalaşmış dostluq, tərəfdaşlıq, müttəfiqlik modelinin bir tərəfi Türkiyədirsə, digər tərəf isə əzəli və əbədi qonşumuz olan, 2020-ci ilin noyabrında üçtərəfli Bəyanatın imzalanmasında, bununla da uzun illər boyu sürən münaqişənin nizama salınmasında fəal iştirak edən Rusiyadır. Öz milli maraqlarına uyğun çoxşaxəli müstəqil xarici siyasət yürüdən Azərbaycan dövləti regionda yaranan yeni reallıqlar fonunda öz əlaqələrini gündən-günə möhkəmləndirmək, bölgədə və regionda etibarlı tərəfdaş imicini qorumaq əzmindədir.

BMT Nizamnaməsinə, Helsinki Yekun aktına, beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunmasının vacibliyi vurğulanan Moskva Bəyannaməsinin bütün müddəaları Azərbaycanın milli maraqlarına uyğun olmaqla bərabər, həm də Azərbaycan dövlətinin ərazi bütövlüyünə, müstəqilliyinə zəmanət verir.

Dövlət başçımız bu sənədin ölkələrimiz arasında qarşılıqlı əlaqələrin möhkəmlənməsində və regional təhlükəsizliyin bərqərar olmasında mühüm əhəmiyyət kəsb edəcəyini bildirmiş, müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasının son illərdə Rusiya ilə Azərbaycan arasında qarşılıqlı əməkdaşlıq potensialının artdığının göstəricisi olduğunu qeyd etmişdir. Ölkələrin müttəfiqlik qarşılıqlı fəaliyyətinin ən mühüm sahələrini əhatə edən Bəyannamə gələcəkdə ikitərəfli münasibətlərin daha da genişlənməsi üçün çox böyük əhəmiyyət kəsb edəcəkdir.

Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından sonra həmin gün Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mətbuata bəyanatlarla çıxış etmişlər. Ötən onilliklər ərzində Rusiya-Azərbaycan əməkdaşlığının gündən-günə möhkəmlənərək daha da genişləndiyini, eyni zamanda siyasi, iqtisadi və humanitar sahələrdə çoxsaylı qarşılıqlı faydalı layihələrlə zənginləşdiyini deyən Rusiya Prezidenti Vladimir Putin Rusiya və Azərbaycanın müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında imzalanan Bəyannaməni Rusiya ilə Azərbaycan arasındakı münasibətlərin keyfiyyətcə yeni səviyyəyə keçidi adlandıraraq bundan sonra iki ölkə arasındakı əlaqələrin daha möhkəm dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və bir-birinin maraqlarının nəzərə alınması ənənələrinə əsaslanmaqla əsl sıx müttəfiqlik qarşılıqlı münasibətləri üzərində qurulacağını və hərtərəfli inkişaf etdiriləcəyini bəyan etmişdir. Həmçinin energetika, kənd təsərrüfatı və bir sıra sahələrdə kooperasiyanın inkişafı üzrə imkanları öyrənilməsi üçün Azərbaycana Rusiya işgüzar missiyalarının göndərilməsinin planlaşdırıldığını bildirən Rusiyanın dövlət başçısı Rusiyanın biznes strukturlarının elektroenergetika sahəsində Azərbaycan ilə əməkdaşlığa maraqlı olduqlarını və Azərbaycanın elektrik şəbəkələrinin modernləşdirilməsinə, həmçinin bərpaolunan enerji mənbələri sahəsində olan layihələrə qoşulmaq istədiklərini diqqətə çatdırmışdır.

Sənayedə də səmərəli tərəfdaşlıq qurulduğunu, ölkələr arasında maliyyə sahəsində qarşılıqlı fəaliyyətin bundan sonra da möhkəmləndiriləcəyini, Rusiya ilə Azərbaycan arasında tibb, əczaçılıq və humanitar sahədə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayan Vladimir Putin Azərbaycanda rus dili və mədəniyyətinin dəstəklənməsi və təşviqinə görə Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirmişdir.

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması məsələlərinə xüsusi diqqət yetirən Vladimir Putin Rusiyanın regionda bütün iqtisadi, nəqliyyat əlaqələrinin tezliklə açılmasında, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası prosesinin işə salınmasında bundan sonra da dəstək göstərəcəyini demişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatı zamanı demişdir: "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə üzərində praktiki iş bir ildən bir qədər artıq bundan əvvəl başlanıb. Bu müddətdə ölkələrimizin müvafiq ekspert qrupları tərəfindən 43 bənddən ibarət olan və praktiki olaraq fəaliyyətimizin bütün əsas sahələrini əhatə edən çox geniş sənəd razılaşdırılıb. Bəyannamənin birinci bəndində deyilir ki, tərəflər öz münasibətlərini müstəqilliyə, dövlət suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmamaq əsasında quracaqlar. Bu bənd bizim münasibətlərimizin xarakterinə, ona dəlalət edir ki, bu münasibətlər zamanın sınağından çıxıb və artıq dediyim kimi, dostluq hisslərinə, qarşılıqlı maraqlara və gələcəyə yönəlməyə əsaslanır. Ona görə ki, bu sənəd təkcə çoxillik birgə işə yekun vurmaqla kifayətlənməyib, həm də gələcək üçün böyük perspektivlər açır. Biz qarşılıqlı siyasi fəaliyyəti artıracaq, əvvəl olduğu kimi, yenə bir-birimizi beynəlxalq qurumlarda dəstəkləyəcək, qarşılıqlı ticarətin həcmini artıracaq və gündəlikdəki bütün məsələləri həll edəcəyik".

Hər zaman sülh, təhlükəsizlik, qarşılıqlı əməkdaşlıq və etibarlı tərəfdaşlıq mövqeyi nümayiş etdirən, Türkiyə ilə Şuşa Bəyannaməsi, Rusiya ilə Moskva Bəyannaməsini imzalayan Azərbaycan bu ilin birinci yarısında Avropa İttifaqı ilə də ikitərəfli saziş üzrə danışıqları bitirmək və saziş imzalamaq niyyətindədir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**